15 (1321) 18-24 aprel 2024-cü il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

## "AZƏRBAYCANDA HƏYATA KEÇİRİLƏN İNFRASTRUKTUR LAYİHƏLƏRİNİN ƏSAS MƏQSƏDİ ÖLKƏMİZİN SÜRƏTLİ İNKİŞAFINI TƏMİN ETMƏKDİR"



Bu fikri Azərbaycan Prezidenti İlham Əliyev aprelin 16-da Hacıqabul rayonunda yenidən qurulacaq Şirvan suvarma kanalının təməlqoyma mərasimindəki çıxışında deyib.

Artıq bu kanalın Şirvan kanalı adlandırıldığını vurğulayan dövlətimizin başçısı bildirib: "Faktiki olaraq kanal yenidən inşa ediləcək və beləliklə, minlərlə insan bu layihədən faydalanacaq. 120 kilometrlik kanalın uzunluğu təxminən iki dəfə artırılacaq və 200 kilometrdən çox olacaq. Əkin sahələrinə gəldikdə isə o da iki dəfədən çox artırılacaq".

## "ŞİRVAN SUVARMA KANALI İSTİFADƏYƏ VERİLƏNDƏN SONRA HACIQABUL GÖLÜ DƏ DOLACAQ"

"İcra ediləcək yeni layihə (Şirvan suvarma kanalının yenidən qurulması – Red.) 230 min hektar əkin sahəsini əhatə edəcək".

Bu fikri Azərbaycan Prezidenti İlham Əliyev aprelin 16-da Hacıqabul rayonunda yenidən qurulacaq Şirvan suvarma kanalının təməlqoyma mərasimindəki çıxışında deyib.

Bunun böyük hissəsinin yeni suvarılacaq əkin sahələri olacağını qeyd edən dövlətimizin başçısı vurğulayıb: *"Əgər əvvəlki dövrlərdə bu kanal 8 rayonu əhatə edirdisə, indi 10 rayonu əhatə edəcək və kanalın son nöqtəsi, bax, arxamdakı Hacıqabul gölü olacaq. Hacıqabul gölü də 10 ildən çoxdur ki, tamamilə quruyub. Kanal istifadəyə veriləndən sonra göl də dolacaq və bunun da təbiətə çox müsbət təsiri olacaqdır".*

## "SU EHTİYATLARINDAN SƏMƏRƏLİ ŞƏKİLDƏ İSTİFADƏ ETMƏK BİZİM BAŞLICA VƏZİFƏMİZDİR"

"İqlim dəyişikliyi ilə bağlı dünyada böyük narahatlıq var, o cümlədən Azərbaycanda. Biz indi görürük ki, bu il faktiki olaraq əvvəlki illərdən fərqlənirdi".

Bu fikri Azərbaycan Prezidenti İlham Əliyev aprelin 16-da Hacıqabul rayonunda yenidən qurulacaq Şirvan suvarma kanalının təməlqoyma mərasimindəki çıxışında bildirib.

Bu il kifayət qədər qar, yağış yağdığını, su hövzələrimizdə, su anbarlarında kifayət qədər su olduğunu qeyd edən dövlətimizin başçısı bildirib: *"Ancaq əvvəlki illərdə biz hər il quraqlıqla üzləşirdik. Bizim dağlarımıza daha az qar yağırdı. Çaylarımızda suyun səviyyəsi əvvəlki illərdə aşağı düşürdü, bəzi hallarda əsas çaylarımız quruyurdu. Xəzər dənizinin dayazlaşması göz önündədir. Bunu hər kəs görə bilir. Belə olan halda su ehtiyatlarından səmərəli şəkildə istifadə etmək bizim başlıca vəzifəmizdir".*

## NÖVBƏTİ İLLƏRDƏ AZƏRBAYCAN HÖKUMƏTİNİN QARŞISINDA DURAN ƏSAS İNFRASTRUKTUR LAYİHƏLƏRİ AÇIQLANIB

Hacıqabul rayonunda yenidən qurulacaq Şirvan suvarma kanalının təməlqoyma mərasimindəki çıxışı zamanı Prezident İlham Əliyev bildirib ki, növbəti illərdə hökumətin qarşısında duran əsas infrastruktur layihələri arasında başlıca vəzifə içməli su və suvarma layihələri olacaqdır.



Artıq genişmiqyaslı proqramın işlənib hazırlandığını vurğulayan dövlətimizin başçısı qeyd edib: *"Şirvan və Qarabağ kanalları Taxtakörpü kanalı ilə birlikdə ən böyük suvarma kanalları olduğu üçün bu layihələrə xüsusi əhəmiyyət verilir. Ancaq artıq qəbul edilmiş proqram əsasında Azərbaycanda 10-dan çox su anbarı inşa ediləcəkdir".*

## ÇOXTƏRƏFLİ DİPLOMATİYADA FƏAL ROL OYNAYAN AZƏRBAYCANIN BU SAHƏDƏ ZƏNGİN TƏCRÜBƏSİ VAR



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 17-də Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin Baş katibi Kayrat Sarıbayı qəbul edib.

COP29-un Azərbaycanda keçirilməsi münasibətilə təbriklərini çatdıran Kayrat Sarıbay bunu beynəlxalq ictimaiyyətin Azərbaycanın çoxtərəfli diplomatiya sahəsində roluna hörmətinin və ehtiramının təzahürü kimi qiymətləndirib.

O, ölkəmizin regionda böyükmiqyaslı kommunikasiya layihələrinin həyata keçirilməsindəki mühüm rolunu da xüsusi vurğulayıb.

Dövlətimizin başçısı Azərbaycanın Qoşulmama Hərəkatının sədri kimi COVID-19 pandemiyası dövründə üzv ölkələr arasında həmrəyliyin gücləndirilməsi və Qoşulmama Hərəkatının təsisatlanması baxımından atdığı addımlara toxunub, bu xüsusda Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin, Gənclər Təşkilatının və Qadınlar Platformasının yaradılması istiqamətində təşəbbüsləri vurğulayıb.

Söhbət zamanı bu təşkilatın Asiya qitəsində sülhün, təhlükəsizliyin gücləndirilməsinə və etimad quruculuğu prosesinə töhfə verməsi baxımından böyük potensiala malik olduğu qeyd edilib, Azərbaycanın üzv dövlətlərlə birgə çalışaraq Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin daha da təsisatlanması və sahəvi əməkdaşlığın inkişaf etdirilməsinə öz töhfəsini vermək əzmində olduğu vurğulanıb.

## "AZƏRBAYCANDA BİR ÇOX İNFRASTRUKTUR LAYİHƏLƏRİ ÖZ HƏLLİNİ TAPMIŞDIR"

Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev aprelin 16-da Hacıqabul rayonunda yenidən qurulacaq Şirvan suvarma kanalının təməlqoyma mərasimindəki çıxışında deyib.

Dövlətimizin başçısı bildirib: *"Qazlaşdırmanın səviyyəsi 96 faizə çatıb. Elektrik enerjisi ilə təminat və yeni elektrik stansiyalarının yaradılması geniş vüsət alıb və əhəmiyyətli dərəcədə irəliləyişə nail olmuşuq. Bütün ölkəmiz yeni, müasir yollarla əhatə olunur".*

## "BİZ BU GÜN SU MƏNBƏLƏRİMİZƏ TAM SAHİB OLMUŞUQ"

"Vətən müharibəsi və antiterror əməliyyatı nəticəsində biz bu gün öz su mənbələrimizə tam sahib olmuşuq".

Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev aprelin 16-da Hacıqabul rayonunda yenidən qurulacaq Şirvan suvarma kanalının təməlqoyma mərasimindəki çıxışında deyib.

Vaxtilə Ermənistanın təkcə bizim torpaqlarımızı deyil, resurslarımızı da işğal etdiyini xatırladan dövlətimizin başçısı bildirib: *"Qarabağ və Şərqi Zəngəzurda mövcud olan su resursları bizim ümumi su resurslarımızın 25 faizini təşkil edir. Bu su resurslarının əsas xüsusiyyəti, müsbət tərəfi odur ki, bunlar daxili mənbələr hesabına formalaşan su resurslarıdır".* Prezident qeyd edib ki, Qarabağın və Şərqi Zəngəzurun su resursları daxili mənbələr olduğu üçün bunun xüsusi əhəmiyyəti var.

## "QARABAĞDA VƏ ŞƏRQİ ZƏNGƏZURDA GÖRDÜYÜMÜZ İŞLƏRİN DÜNYADA MİSLİ-BƏRABƏRİ YOXDUR"

"Azərbaycan dövləti güclü dövlətdir, öz gücünə, öz imkanlarına arxalanan dövlətdir".

Bunu Azərbaycan Prezidenti İlham Əliyev aprelin 16-da Hacıqabul rayonunda yenidən qurulacaq Şirvan suvarma kanalının təməlqoyma mərasimində söyləyib.



*"Biz Qarabağda və Şərqi Zəngəzurda elə genişmiqyaslı işlər görürük ki, bunun dünyada misli-bərabəri yoxdur. Həm yaşayış evləri, infrastruktur layihələri, suvarma layihələri, dəmir yolları, tunellər, hava limanları – cəmi üç il ərzində görülmüş işlər dövlətimizin gücünü, hökumətimizin və dövlətimizin iradəsini göstərir. Dediyim bu layihələrin hamısı icra ediləcək"*, - deyə dövlətimizin başçısı bildirib.

# Bakıda ilk dəfə Azərbaycan İnsurtech Zirvəsi keçirilib



Bakı Konqres Mərkəzində Azərbaycan Mərkəzi Bankının, Azərbaycan Sığortaçılar Assosiasiyasının (ASA) və Türkiyə tərəfindən "InsurTech Hub"ın təşkilatçılığı ilə ilk dəfə Azərbaycan İnsurtech Zirvəsi keçirilib.

Tədbirdə çıxış edən Mərkəzi Bankın sədri Taleh Kazımov bildirib ki, Azərbaycan iqtisadiyyatı hazırda keyfiyyətcə yeni dövrə qədəm qoyub. Sığorta bazarının inkişafı ilə bağlı həyata keçirilən layihələr əhalinin rifahına töhfə vermək məqsədi daşıyır. O qeyd edib ki, toplantının əsas məqsədi Türkiyə sığorta şirkətlərinin rəqəmsallaşma sahəsindəki təcrübələrini öyrənmək və Türkiyənin sektor lideri olan texnologiya brendləri ilə birgə Azərbaycanın sığorta bazarında rəqəmsallaşmanın inkişafına töhfə verməkdir. T.Kazımovun sözlərinə görə, Azərbaycan iqtisadiyyatı hazırda özünün keyfiyyətcə yeni inkişaf mərhələsinə daxil olub. Bu dövrdə özəl sektorun təşəbbüsləri və dövlət-özəl sektoru əməkdaşlığı iqtisadi artımın əsas hərəkətverici qüvvəsi kimi çıxış edir.

Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev Azərbaycanın rəqəmsal siyasətlə, innovasiyalarla bağlı növbəti illər üçün dövlət strategiyasının istiqamətlərini açıqlayıb: *"Dövlətin strategiyası üç əsas istiqamət üzərində qurulub. Bunlara elektron hökumətin təkmilləşdirilməsi, datanın bizneslər üçün əlçatan olması daxildir. Həmçinin rəqəmsal cəmiyyətin formalaşdırılması da əsas istiqamətlərdəndir ki, bu da dövlət-biznes, cəmiyyət-biznes arasındakı əlaqələrin daha uğurlu tənzimlənməsinə imkan verəcək. Ölkəmizdə bu istiqamətdə bir sıra işlər aparılır, layihələr gerçəkləşdirilir".*

Zirvə çərçivəsində Azərbaycan Mərkəzi Bankının baş direktoru Ziya Əliyevin və türkiyəli mütəxəssis Fatih Acerin sığorta sektorunun təhlilinə dair təqdimatları nümayiş etdirilib. Həmçinin Azərbaycan və Türkiyə panelləri üzrə təşkil olunacaq müzakirələrdə qardaş ölkələrin mütəxəssisləri təcrübə mübadiləsi aparıblar.

# "Xəzər dənizi ilə bağlı elmi araşdırmaların aparılması labüddür"

"Xəzər dənizi ilə bağlı elmi araşdırmaların aparılması labüddür. Vaxtilə Xəzər dənizi hövzəsi ölkələrində ən güclü elmi və texniki potensial Azərbaycanda olub. Ona görə də bu ənənələri davam etdirmək yaxşı olardı".



Bunu Milli Məclisin deputatı Ziyad Səmədzadə parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin aprelin 17-də keçirilən iclasında Xəzər dənizində süni torpaq sahələrinin yaradılması ilə bağlı qanun layihəsinin müzakirəsində çıxışı zamanı deyib.

Deputat Xəzər dənizində süni torpaq sahəsinin yaradılması ilə bağlı qanun layihəsinin böyük perspektivinin olacağını qeyd edib. *"Əgər elmi araşdırmalar aparılsa, yaxın 10 il ərzində nə qədər süni torpaq sahəsinin salınacağını bilmək olar. İlk olaraq süni torpaq sahəsinin yaradılmasına Nargin adasından başlamaq olar. Bu, həm də Azərbaycan xalqının arzusudur"*, - deyə deputat bildirib.

# Regional konfransda enerji effektivliyi sahəsində görülən işlərdən danışılıb

*"Azərbaycanda istilik təchizatı və enerji effektivliyinin artırılması istiqamətində mühüm işlər görülür. Bu məsələlərlə əlaqədar Azərbaycan dövlət proqramları qəbul olunub, layihələr həyata keçirilir".*



Bu fikirlər aprelin 16-da Gürcüstanın paytaxtı Tbilisidə Şərq Tərəfdaşlığı (ŞT) regionunda dayanıqlı istilik və enerji səmərəliliyi üzrə regional konfransda səsləndirilib.

Enerji Məsələlərini Tənzimləmə Agentliyinin Strateji planlaşdırma və innovasiyalar bölməsinin böyük mütəxəssisi Rüstəm Mirzəlizadə tədbirdə çıxış edərək, ölkəmizdə istilik təchizatı ilə bağlı görülən işlərdən danışıb. Bildirilib ki, bu və digər sahələrdə enerji effektivliyinin artırılması istiqamətində mühüm islahatlar həyata keçirilir. Azərbaycan prezidentinin imzaladığı müvafiq sərəncamlardan irəli gələn tələblərin, təsdiq olunmuş dövlət proqramlarının icrası nəticəsində ölkədə istilik təchizatı inkişaf etmiş, enerji effektivliyi əsaslı surətdə artmışdır.

Azərbaycan nümayəndə heyətinin üzvləri konfrans çərçivəsində keçirilən seminarda ölkəmizdə həyata keçirilən islahatlar barədə də iştirakçılara ətraflı məlumat veriblər.

Qeyd edək ki, ikigünlük regional konfransda ŞT-nin milli enerji tənzimləmə orqanları, müvafiq nazirliklər və rayon istilik orqanları/ şirkətlərinin enerji sektorunda maraqlı tərəflərinin nümayəndələri iştirak ediblər.

Konfransın keçirilməsində məqsəd 5 Şərq Tərəfdaşlığı ölkəsinin (Ermənistan, Azərbaycan, Gürcüstan, Moldova və Ukrayna) davamlı isitmə və soyutma üzrə potensialını artırmaq olub.

# Dünya Bankı Azərbaycanda iqtisadi artım proqnozlarını yeniləyib

Dünya Bankı Azərbaycanda iqtisadi artımı 2024-cü ildə 2,3%, 2025-ci və 2026-cı illərdə isə 2,4% səviyyəsində proqnozlaşdırır.

Bu barədə Dünya Bankının Avropa və Mərkəzi Asiya iqtisadiyyatlarına dair "Özəl sektorun gücünün açılması" adlı aprel hesabatında deyilir.

"Qeyri-enerji sektorunda artımın 2024-cü ildə 4%-ə qədər yüksələcəyi gözlənilir. Bu, ilk növbədə tikinti sektorunun aktiv şəkildə genişləndirilməsi ilə bağlıdır. Buna da dövlət sektorunun tikintiyə investisiya qoyması təsir edir. Digər sahələrdə də artım templərinin qorunub saxlanacağı gözlənilir. Tələbə gəlincə, istehlak artımının sabitləşəcəyi, dövlət sərmayələri ilə dəstəklənən, lakin özəl investisiyalardakı anemik artım ilə məhdudlaşdırılan investisiya artımının isə mülayim qalacağı proqnozlaşdırılır", – hesabatda deyilir.




Dünya Bankının proqnozlarına görə, Azərbaycanda 2024-cü ildə illik inflyasiya 3%, 2025-ci ildə 3,5%, 2026-cı ildə isə 4% təşkil edəcək.

*"Daxili tələbatın mülayim artımı və qlobal ərzaq qiymətlərinin sabitləşməsi nəticəsində orta illik inflyasiyanın aşağı səviyyədə qalacağı, ortamüddətli perspektivdə 2,2% səviyyəsində olacağı proqnozlaşdırılır"*, - hesabatda bildirilir.

# "Türkiyə digər sahələrdə olduğu kimi, sığorta sahəsində də əsas tərəfdaşımızdır"



Bunu Bakıda keçirilən "Azərbaycan Insurtech Zirvə" tədbirində Azərbaycan Mərkəzi Bankının sədri Taleh Kazımov deyib.

O qeyd edib ki, Azərbaycan Mərkəzi Bankı və sığorta bazarının iştirakçıları Sığorta və Özəl Pensiyalara Tənzimləmə və Nəzarət Qurumu, Sığorta Bilgi Mərkəzi, Fövqəladə Hallar Sığortası Qurumu, Türkiyə Sığorta Birliyi, Türkiyə Sığorta İnstitutu və Türkiyənin digər təşkilatları ilə fəal əməkdaşlıq edirlər.

"Mərkəzi Bank hazırda sığorta sektorunun rəqəmsal transformasiyasının dəstəklənməsi məqsədilə yeni tənzimləmə çərçivəsi yaratmışdır.

Tərəfimizdən 2024-cü ilin 31 yanvar tarixində "Xüsusi tənzimləmə rejiminin tətbiqi Qaydası" təsdiqlənərək, "fintech"lərin fəaliyyətinin hüquqi bazası formalaşdırılıb. İnanıram ki, xüsusi tənzimləmə rejimi vasitəsilə "fintech"lərin ayrılmaz tərkib hissəsi olan "insurtech"lərin fəaliyyətinə təkan veriləcək", - deyə T.Kazımov qeyd edib.

# *Azərbaycan iqtisadiyyatı, ölkənin xarici iqtisadi əlaqələri dünən, bu gün, sabah*



*Sual-cavabı Bakı Dövlət Universitetinin dosenti, iqtisad elmləri namizədi Mehriban Yadulla aparır.*

**Sual: Malların və nəqliyyat vasitələrinin gömrük nəzarəti altında olma müddəti nə qədərdir?**

**Cavab:** Bununla bağlı Gömrük Məcəlləsinin 83-cü maddəsinə müraciət edəcəyik:

Gömrük ərazisinə gətirilən mallar və nəqliyyat vasitələri gömrük sərhədini keçdiyi andan başlayaraq aşağıdakı hallardan biri baş verənədək gömrük nəzarəti altında olurlar:

*1. sərbəst dövriyyəyə buraxılanadək;*
*2. məhv edilənədək;*
*3. dövlətin xeyrinə imtina olunanadək;*
*4. malların dövlət mülkiyyətinə keçirilməsi, yaxud onlar barəsində sərəncam verilməsinədək;*
*5. mallar və nəqliyyat vasitələri gömrük ərazisindən faktiki çıxarılanadək.*

İxrac gömrük proseduru, daxili tranzit və ya xaricdə emal xüsusi gömrük prosedurları üçün bəyan edilən daxili mallar və nəqliyyat vasitələri müvafiq gömrük bəyannaməsi gömrük orqanı tərəfindən təsdiq olunduğu vaxtdan başlayaraq, gömrük ərazisindən aparılana, dövlətin xeyrinə imtina ya məhv edilənə, yaxud gömrük bəyannaməsinin Gömrük Məcəllənin 154-cü maddəsinə uyğun olaraq ləğvinədək gömrük nəzarəti altında olurlar.

Son istifadə xüsusi gömrük proseduru altında yerləşdirilmiş mallar Gömrük Məcəlləsinin 195-ci maddəsində nəzərdə tutulmuş müddətdə gömrük nəzarəti altında olurlar.

Gömrük nəzarəti altında olan mallar və nəqliyyat vasitələrindən istifadə olunmasına və onlar barəsində sərəncam verilməsinə Gömrük Məcəlləsi ilə müəyyənləşdirilmiş qaydada və şərtlər daxilində yol verilir.

Əvvəllər gömrük ərazisindən çıxarılmış malların və nəqliyyat vasitələrinin, yaxud emal məhsullarının gömrük qanunvericiliyinə əsasən mütləq qaydada geri qaytarılması nəzərdə tutulduğu hallarda, gömrük orqanları həmin malların və nəqliyyat vasitələrinin, yaxud emal məhsullarının geri gətirilməsinə dair öhdəliklərin şəxslər tərəfindən Gömrük Məcəlləsində göstərilən qaydada, gömrük prosedurlarının şərtlərinə uyğun olaraq yerinə yetirilməsinə nəzarəti həyata keçirirlər.

# Birinci rübdə KOBİA 152 biznes planın hazırlanmasına dəstək olub

Cari ilin I rübündə sahibkarlar və biznesə başlamaq istəyənlər üçün 75 təlim keçirilib, 200-dən çox məsləhət xidməti göstərilib, 150-dən artıq biznes plan hazırlanıb.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyindən (KOBİA) bildirilib ki, cari ilin yanvar-mart ayları ərzində KOB subyektlərinin biznes biliklərinin artırılması və sahibkarlığa dair məlumatlılıq səviyyəsinin yüksəldilməsi məqsədilə KOBİA tərəfindən 75 təlim təşkil olunub. Təlimlər KOB-ların təlim ehtiyaclarına uyğun olaraq əsasən satış, marketinq, mühasibatlıq, işçi heyətinin idarə edilməsi, brendləşmə, biznesdə innovasiyaların tətbiqi, biznes planın hazırlanması, layihələrin idarə olunması və digər mövzuları əhatə edib.

Bu dövrdə 13 sahibkar və menecer beynəlxalq təcrübəyə yiyələnmək üçün KOBİA-nın əlaqələndiricisi olduğu "Almaniya ilə biznes əməkdaşlığı Proqramı" çərçivəsində Almaniyada ixtisasartırma kursu keçib. Agentliyin video təlim platformasındakı onlayn təlim videolarından ödənişsiz olaraq 45 sahibkar və biznesə başlamaq istəyən şəxs faydalanıb.

Ümumilikdə bu ilin I rübündə agentliyin təşkilatçılığı ilə keçirilən təlimlərdən 800-dən çox biznes subyekti və potensial sahibkar yararlanıb.

Bu dövrdə 208 sahibkarlıq subyektinə biznesin qurulması və inkişaf etdirilməsi üzrə məsləhət xidməti göstərilib. KOBİA 152 biznes planın hazırlanması üçün KOB subyektlərinə dəstək olub.

# Azərbaycanın ən çox neft ixrac etdiyi ölkə İtaliyadır



Bu ilin yanvar-mart aylarında Azərbaycandan İtaliyaya ixracın həcmi 33,24 faiz olub.

Dövlət Gömrük Komitəsindən (DGK) bildirilib ki, qeyd olunan dövrdə Azərbaycandan İtaliyaya 1 milyon 930 min 858,25 ton neft ixrac edilib.

Azərbaycanın ən çox neft ixrac etdiyi ölkələrin siyahısında İsrail ikinci yerdə qərarlaşıb. Cari ilin birinci rübündə 621 083,92 min dollar dəyərində 1 milyon 21 min 917,3 ton neft ixrac edilib.

Siyahıda üçüncü yeri Hindistan tutur. Qeyd olunan dövrdə bu ölkəyə 454 380,81 min dollarlıq 712 min 883,74 ton neft ixrac edilib.

# İnformasiya texnologiyalarına üstün dövlət baxışı



*Bəhruz Əliyev,*
*İnformasiya Texnologiyaları üzrə mühəndis-tədqiqatçı, Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının (AKTA) eksperti*

*(əvvəli ötən sayımızda)*

**5.1.18.** *informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsində milli kadr ehtiyatının tükənməzliyi və mühafizəsi, ölkə xaricinə "beyin axını"nın qarşısının alınması;*

İnformasiya Texnologiyaları sahəsinin özünəməxsusluğu ondadır ki, bu sahə beynəlxalqdır. Bu sahədə işləyən hər kəs dünyanın istənilən ölkəsinə bənzər işləri görə bilər. Bu halın mövcudluğu şərait yaradır ki, kadrlar daha yaxşı maaş və imkan üçün dünyada olan digər böyük qazanclı təklifləri dəyərləndirsinlər. Ona görə də mümkündür ki, kadr işdə yaranan kiçik bir narazılıq vəya maddi səbəblərdən dolayı qarşısındakı seçimləri dəyərləndirsin. Yetişmiş və səmərəli fəaliyyət göstərən işçilərin əməyinin meyvə verdiyi vaxtlarda hansısa subyektiv səbəbdən dəyişikliyə getməsi müəssisə üçün itki olduğu kimi, ölkəni tərk edərsə, bu ölkə üçün də itki hesab edilə bilər. Peşəkar kadrların hazır olması illər alır və biz keyfiyyətli kadrların ölkə xaricinə çıxmasının qarşısını almaq və müvafiq maraqlarda qarşılıqlı razılığa gəlmək mümkündür. Eyni zamanda tələblərə cavab verə bilən kadrların hər zaman mövcud olması üçün xüsusi proqramın işlənilməsinə ehtiyac ola bilər. Strategiyada bu bənd xüsusi əhəmiyyət daşıyır və strategiyanın məsqədlərindən biridir.

**5.1.21.** *cəmiyyətdə informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik mədəniyyətinə dair zəruri biliklərin, bacarıqların artırılmasına və təbliğinə dəstək verilməsi;*

*Bu məsələ ilə bağlı olaraq, sənədin tədbirlər planı bölməsində geniş yer ayrılmışdır. Maarifçilik işlərinin bu sahədə geniş inkişaf etdirilməsinə və maarifçiliyə verilən yüksək dəstək strategiyanın məqsədlərindən biridir.*

**5.1.22.** *uşaqların internetdən təhlükəsiz istifadə imkanlarının möhkəmləndirilməsinə, tövsiyələrin işlənilməsinə təşkilati dəstək verilməsi;*

*Strategiya eyni zamanda uşaqların təhlükəsiz internetdən istifadəsi etmələri üçün qarşıya məqsəd qoymaqdadır. Tədbirlər planında bu məsələyə xüsusi yer verilir.*

**5.1.27.** *informasiya təhlükəsizliyi üzrə kadr hazırlığı üçün müasir təhsil müəssisələrinin və laboratoriyalarının formalaşdırılması;*

Sahə üzrə kadr hazırlığı məqsəd olmaqla birlikdə həm də prioritet istiqamətlərdən biridir. Təhsil ocaqları və onların nəzdində qurulacaq labaratoriyalar sahənin inkişafına yol açacaqdır.

Fəsil 7-də isə maliyyələşdirmə mexanizmləri barədə qısa və konkret aşağıdakı kimi bəhs edilir:

***Strategiyada nəzərdə tutulan tədbirlərin maliyyələşdirilməsi büdcə təşkilatları üçün onların saxlanılması məqsədilə Azərbaycan Respublikasının dövlət büdcəsində nəzərdə tutulan vəsaitdən və qanunla qadağan edilməyən digər mənbələrdən həyata keçirilir.***

Təsərrüfat hesablı qurumların, özəl qurumların Strategiyada nəzərdə tutulan tədbirlərdə iştirakı həmin qurumların vəsaiti hesabına və qanunla qadağan edilməyən digər mənbələrdən maliyyələşir.

Strategiyanın 6-ci fəslində isə Prioritet istiqamətlərdən bəhs edilir. 8-ci fəslində isə prioritet istiqamətlər əsasında tədbirlər planı göstərilmişdir. Ona görə 6-ci və 8-ci fəsillərin bir qismini birilikdə göstərmək və bəzi texniki-texnoji məqamları izah etmək istərdim.

**Təhdidlərin müəyyənləşdirilməsi və risklərin idarə edilməsi**

Milli informasiya məkanında risklərin qiymətləndirilməsi Strategiyanın əsas elementlərindən biri hesab edilir. Ona görə də təhdidlərin dəqiqləşdirilməsi, risklərin idarə edilməsi ilə bağlı tədbirlər həyata keçirilməsi və təhdidlərin qarşısını ala bilən texnologiyalar hazırlanması məsələnin həllinə töhfə verəcəkdir. Tədbirlər planında olan bəzi məqamları olduğu kimi, amma sadələşdirilmiş formada göstərmək olar.

İnformasiya məkanında informasiya təhlükəsizliyinə və kibertəhlükəsizliyə təhdidlərin kateqoriyalarını müəyyən etmək və təsnifləşdirmək üzrə əsas icraçı XRİTDX, digər icraçılar isə DTX, RİNN, DİN, MN-dir. Tədbir 2023-2024-cü illər intervalında nəzərdə tutulmuşdur.

İnformasiya təhlükəsizliyi üzrə yarana biləcək təhdidlərin və risklərin əvvəlcədən müəyyən edilməsi və görülməli tədbirləri proqnozlaşdırmaq məqsədilə süni intellekt əsaslı həllərin işlənib hazırlanmasını və tətbiqini təşkil etmək üçün əsas icraçı XRİTDX, digər icraçılar isə DTX, RİNN, ETN-dir. Tədbir 2023-2027-ci illər intervalında nəzərdə tutulub.

Müvafiq sahələrə aid təhdidlərdə istifadəsi ehtimal olunan, belə təhdidlərin qarşısını ala bilən müasir texnologiyaların (xüsusən süni intellekt, qeyri-səlis məntiq və s.) hazırlanmasını, tədqiq və tədris olunmasını, təlimlərin keçirilməsini təşkil etmək üçün əsas icraçı XRİTDX, digər icraçılar isə RİNN, DTX, DİN, MdN-dir.

İnformasiya təhlükəsizliyi hadisələrinin aşkarlanması tədbirlərinin və mühafizə texnologiyalarının gücləndirilməsi

Bu sahədə yerli istehsalçılar tərəfindən istehsal olunan innovativ fəaliyyətlərin inkişafı gözləniləndir. Hadisələrin aşkarlanması və mühafizə texnologiyalarının gücləndirilməsi nəzərdə tutulmuşdur. Tədbirlər planında olan bəzi məqamları olduğu kimi, amma sadələşdirilmiş formada göstərmək olar.

İnformasiya təhlükəsizliyi hadisələrinin monitorinqi üçün insidentləri və kritik halları aşkarlamaq, ölçmə meyarlarını və indikatorlarını müəyyən etmək üçün əsas icraçı RİNN, digər icraçılar isə DTX, XRİTDX, DİN, MN, ETN, XSİDA-dır. Tədbir 2023-2024-cü illər intervalında nəzərdə tutulmuşdur.

Milli CERT-in potensialının gücləndirilməsi üçün tədbirlər görmək, bununla əlaqədar təhlükəsizlik üzrə əməliyyat mərkəzinin yaradılmasını təmin etmək üçün əsas icraçı RİNN, digər icraçılar isə XRİTDX, DTX, DİN, MN-dir.

2023-2025-ci illər intervalında nəzərdə tutulmuşdur.

Milli CERT və digər CERT-lər arasında vahid məlumatlandırma mexanizmlərini müəyyən etmək və tətbiqinə dəstək vermək üçün əsas icraçı RİNN, digər icraçılar isə XRİTDX, DTX-dir. Tədbir 2023-2024-cü illər intervalında nəzərdə tutulmuşdur.

İnformasiya mühafizəsi təminatının təkmilləşdirilməsi və bu sahədə yerli istehsalçıların inkişafına dəstək verilməsi məqsədilə informasiya mühafizəsi vasitələrinin təchizatı və istehsalı ilə bağlı prioritet fəaliyyət sahələrini müəyyən etmək üçün əsas icraçı İN, icraçılar isə XRİTDX, RİNN, DTX-dir.

İnformasiya mühafizəsi vasitələrinin yerli istehsalçılarının stimullaşdırılması məqsədilə təkliflər hazırlamaq üçün əsas icraçı NK, digər icraçılar isə İN, XRİTDX, RİNN, DTX-dir.

İnformasiya mühafizəsi vasitələri istehsalının, milli rəqəmsal iqtisadiyyatın, xüsusilə proqram mühəndisliyinin inkişafına təşkilati və elmi dəstək vermək üçün əsas icraçı DTX, digər icraçılar isə ETN, XRİTDX, RİNN, ASK-dır.

İnformasiya mühafizəsi sahəsində yerli istehsalın inkişafı məqsədilə kriptoqrafik mühafizə sahəsində milli resursların hazırlanması üçün tədbirlər görülməsində əsas icraçı DTX, digər icraçılar isə XRİTDX, AMEA-dır. Tədbir 2023-2024-cü illər intervalında nəzərdə tutulmuşdur.

İnformasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsində innovativ həllərin tətbiqinin və startapların fəaliyyətinin təşviqi, yeni məhsulların və xidmətlərin yaradılmasına, işlənilməsinə və bazara çıxarılmasına dəstək vermək üçün əsas icraçı RİNN, digər icraçılar isə İN, ETN, XKX, DTX, VXSİDA-dır.

*(davamı gələn sayımızda)*

# Şəffaflığın təmin edilməsinə mühüm töhfə

Dünya təcrübəsi göstərir ki, cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına qarşı ardıcıl və sistemli mübarizə aparmadan və belə halları ləğv etmədən iqtisadi islahatların həyata keçirilməsi və inkişafın sürətləndirilməsi mümkün olmur. İstər qanunsuz yollarla əldə edilmiş əmlakın leqallaşdırılması, istərsə də onun törədicisi olan korrupsiya hər bir ölkənin iqtisadiyyatına böyük ziyan vurmaqla bərabər, əlverişli investisiya mühitinin formalaşmasına, xarici və daxili mənbələr hesabına investisiyaların cəlb edilməsinə, sahibkarlığın inkişafına ciddi əngəl törədir. Eyni zamanda, çirkli pulların yuyulması və korrupsiyanın geniş yayılması ölkənin maliyyə bazarının dayanıqlığını sarsıdır.

Bununla yanaşı, sübut olunmuşdur ki, qanunsuz yollarla əldə edilmiş əmlakın leqallaşdırılmasının mümkünlüyü maliyyə hesabatlılığının dürüstlüyündən birbaşa asılıdır. Başqa sözlə, cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına qarşı mübarizədə maliyyə hesabatlarının düzgün tərtib edilməsi və onun obyektiv qiymətləndirilməsi, qanunsuz və şübhəli əməliyyatlara nəzarətin təmin edilməsi, maliyyə institutlarının fəaliyyətində zəruri şəffaflığın olması mühüm əhəmiyyət kəsb edir ki, bu işdə də auditin potensial rolu və əhəmiyyəti çox böyükdür. Beynəlxalq təcrübədə məhz müstəqil auditor tərəfindən təsdiqlənmiş maliyyə hesabatlığının mövcudluğu qanunsuz yollarla əldə edilmiş əmlakın leqallaşdırılmasında və korrupsiyaya qarşı mübarizədə preventiv (qabaqlayıcı) xarakterli tədbir kimi dəyərləndirilir.

Maliyyə intizamının gücləndirilməsi, şəffaflığın artırılması və kölgə iqtisadiyyatı ilə mübarizə sahəsində ölkəmizdə həyata keçirilən kompleks tədbirlər beynəlxalq təşkilatlar tərəfindən getdikcə daha yüksək dəyərləndirilir və Azərbaycanın reytinqi stabil olaraq artmaqdadır.

Bununla belə, son illərdə yeni dövrün çağırışları zəminində ölkəmizdə həyata keçirilən islahatlar nəticəsində əldə edilən uğurlu nəticələrlə yanaşı, ölkə iqtisadiyyatının inkişafı yolunda bir sıra əngəllər hələ də tam aradan qaldırılmamışdır ki, bunlardan da biri cinayət yolu ilə əmlakın əldə edilməsi və ondan istifadə olunmasıdır. Çox önəmlidir ki, belə halların yolverilməzliyini kəskin və davamlı olaraq tənqid edən Prezident İlham Əliyevin 2023-cü il 28 fevral tarixli sərəncamı ilə təsdiq edilmiş "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2023–2025-ci illər üzrə Milli Fəaliyyət Planı" bu istiqamətdə çox mühüm kompleks tədbirlərin reallaşdırılmasını hədəfləyir. "Milli Fəaliyyət Planı" öz əhatəliliyi və təkmilliyi baxımından çox əhəmiyyətli sənəd olmaqla, cəmiyyətimiz üçün həyati vacib olan bir sıra sahələri özündə ehtiva edir. Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində ölkədaxili fəaliyyətin koordinasiyasının təmin edilməsi zərurəti xüsusi yer alır.

Ölkə auditorları üçün həm şərəfli, həm də yüksək məsuliyyət doğuran bir haldır ki, Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş Milli Fəaliyyət Planında digər nəzarət orqanları ilə birlikdə Azərbaycan Respublikasının Auditorlar Palatasına da çox mühüm vəzifələrin icrası həvalə olunmuşdur.

"Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu maliyyə hesabatlarında şəffaflığın təmin edilməsində böyük əhəmiyyətə malik olan auditor xidməti qarşısında da xüsusi öhdəliklər yaratmışdır. Belə ki, həmin qanunla auditor təşkilatları və sərbəst auditorlar öhdəlik daşıyan şəxslər, habelə auditor xidməti göstərən şəxslər qismində təsbit olunmuş, Auditorlar Palatası isə bu sahədə öz səlahiyyətləri daxilində nəzarət orqanı kimi müəyyən edilmişdir. Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizənin müvafiq dövlət proqramlarına və Milli Fəaliyyət Planlarına daxil edilməsi bu işin əhəmiyyətini daha da aktuallaşdırmışdır.

"Cinayət yolu ilə əldə edilmiş əmlak" dedikdə nə başa düşülür?



*Bəhruzə Qasımova,*
*Azərbaycan Respublikası Auditorlar Palatasının Auditin hüquqi tənzimlənməsi və dövlət orqanları ilə iş idarəsinin rəis müavini*

"Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının 2022-ci il 30 dekabr tarixli 781-VIQ nömrəli Qanununun 1.1.1-ci maddəsində qeyd edildiyi kimi, cinayət yolu ilə əldə edilmiş əmlak Azərbaycan Respublikasının Cinayət Məcəlləsində təsbit edilmiş cinayətlərin törədilməsi nəticəsində birbaşa və ya dolayı yolla əldə olunmuş hər hansı pul vəsaitləri, daşınar və ya daşınmaz, maddi və ya qeyri-maddi əmlak nemətləri, o cümlədən virtual aktivlər və əmlaka mülkiyyət hüquqlarını və maraqlarını təsdiq edən hüquqi alətlər və sənədlərdir.

Azərbaycan Respublikasının Auditorlar Palatası cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində öz fəaliyyətinə ilk növbədə bu sahədə normativ bazanın yaradılmasından başlamışdır. Hələ 2010-cu ildə, yəni 2009-cu ildə "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununun qəbul edilməsindən az bir müddət sonra Palata tərəfindən ilk normativ sənəd - "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun auditorlar qarşısında yaratdığı öhdəliklərin yerinə yetirilməsi istiqamətində auditorların fəaliyyətlərinə Azərbaycan Respublikası Auditorlar Palatasının öz səlahiyyətləri çərçivəsində nəzarətin təşkili üzrə metodik göstəriş" tərtib olunmuş, növbəti illərdə isə qanunvericiliyin və dövlət proqramlarının yaratdığı öhdəliklərin hər bir istiqaməti üzrə müvafiq qayda, təlimat, metodik göstəriş və s. materiallar hazırlanmışdır. Eyni zamanda, bu istiqamətdə zəruri təlim proqramları, nəzarət, araşdırma və intizam tədbirləri üzrə də müvafiq sənədlər tərtib edilmişdir.

2010-cu ildən "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu ilə bağlı Auditorlar Palatası tərəfindən hazırlanmış metodik vəsaitlər əsasında 2020-ci ildə "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun auditorlar tərəfindən tətbiqinə dair metodik materiallar Toplusu" (2010-2020-ci illər) hazırlanmış və nəşr etdirilmişdir.

"Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının 2022-ci il 30 dekabr tarixli 781-VIQ nömrəli, "Hədəfli Maliyyə Sanksiyaları haqqında" Azərbaycan Respublikasının 2022-ci il 30 dekabr tarixli 782-VIQ nömrəli və "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 30 dekabr tarixli 783-VIQ nömrəli Qanunlarının qüvvəyə minməsi ilə əlaqədar cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizədə auditorların rolu, vəzifələri və məsuliyyəti sahəsində əhəmiyyətli dəyişikliklərin edilməsi ilə bağlı həmin Topluya dəyişikliklərin edilməsi zərurəti yaranmış və Azərbaycan Respublikasının Auditorlar Palatası sədrinin 2023-cü il 03 mart tarixli 1/8 nömrəli Sərəncamı ilə "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun auditorlar tərəfindən tətbiqinə dair metodik materiallar Toplusu"na (2010-2020-ci illər) dəyişikliklərin edilməsi qərara alınmışdır.




Qanunvericilikdə edilmiş dəyişikliklər nəzərə alınmaqla Auditorlar Palatası tərəfindən "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun auditorlar tərəfindən tətbiqinə dair metodik materiallar Toplusu" yenidən hazırlanmış, Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2024-cü il 21 fevral tarixli 363/9 nömrəli Qərarı ilə bəyənilmiş və nəşr etdirilmişdir. Toplunun aidiyyəti dövlət qurumlarına, Palatanın üzvlərinə, Palatanın Şurası yanında fəaliyyət göstərən komitələrə və komissiyaya razılaşdırılmış siyahı əsasında təqdim olunması təmin olunmuşdur.

Bu topluya daxil edilmiş həmin sənədlər auditor fəaliyyəti ilə məşğul olanların, auditor xidməti istifadəçilərinin, digər maraqlı tərəflərin, habelə nəzarət orqanlarının istifadəsi üçün nəzərdə tutulmuşdur.

Topluya ölkəmizdə şəffaflığın və hesabatlılığın təmin olunması, ƏL/TM-ə və korrupsiyaya qarşı mübarizə istiqamətində auditorların qarşısında icrası vacib hesab edilən 30-a yaxın metodik vəsaitlər daxil edilmişdir.

Yuxarıda göstərilən tədbirlərin həyata keçirilməsi bütövlükdə maliyyə nəzarətçiləri və o cümlədən auditorların fəaliyyətinin təkmilləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edə bilər.

Tamamilə haqlı olaraq cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması probleminin dövlət orqanlarının fəaliyyətində olduğu kimi, özəl sektorda da təmin edilməsi məsələsi qarşıya məqsəd qoyulmuşdur.

Xüsusi qeyd etmək lazımdır ki, nəzərdə tutulmuş tədbirlər inzibati yollardan daha çox qabaqlayıcı tədbirlərin görülməsini məqsədəmüvafiq hesab edir. Belə ki, risklərin müəyyən edilməsi və onun qarşısının alınması üçün qabaqlayıcı tədbirlərin həyata keçirilməsi, iqtisadi-maliyyə xarakterli cinayətlərin ümumilikdə və sahələr üzrə səbəblərinin, xüsusiyyətlərinin və səviyyəsinin öyrənilməsi və bu zaman ixtisaslaşmış tədqiqatların nəticələrindən istifadə edilməsi, habelə qeyri-hökumət təşkilatları ilə birgə əməkdaşlığın vacibliyi vurğulanmışdır.

Ümumiyyətlə, ölkə auditorlarının istər şəffaflığın artırılmasında, korrupsiya və kölgə iqtisadiyyatına qarşı mübarizədə, istərsə də "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2023-2025-ci illər üzrə Milli Fəaliyyət Planı"nda nəzərdə tutulmuş vəzifələrin icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin göstərişlərinə uyğun olaraq, hazırda Auditorlar Palatasının kollektivi və üzvləri bu mühüm vəzifələri vaxtında və keyfiyyətlə yerinə yetirmək əzmindədirlər ki, bu da dövlət başçısının ölkə auditorlarının fəaliyyətinə verdiyi yüksək dəyərə layiq olmaq zərurətindən irəli gəlir.

# TARİXİ ZƏFƏRƏ GEDƏN ŞANLI YOL - APREL DÖYÜŞÜ QƏHRƏMANLARI



***Azərbaycan müstəqilliyini uğrunda qurbanlar verərək əldə etdiyi kimi, ərazi bütövlüyünü, suverenlik və müstəqilliyini qorumaq yolunda da mübarizə aparır, bu yolda da şəhidlər verir. Nə yaxşı ki, bu cür hadisələrin bir çoxu artıq tarixdir. Belə şərəfli günlərdən biri də Azərbaycan tarixinə Aprel döyüşləri, Aprel müharibəsi adı ilə düşüb. Bu Qələbə nəticəsində 30 illik işğal altında qalan torpaqlarımız azad edilib və qədim yurdumuz Qarabağa Böyük Qayıdışın əsası qoyulub. Aydındır ki, böyük Zəfərə gedən yol heç də asan olmayıb və böyük güc, qüdrət, əzm hesabına əldə edilib.***

2016-cı il aprelin 1-dən 2-nə keçən gecə Azərbaycanın ön xətt mövqeləri və yaşayış məntəqələri Ermənistan silahlı qüvvələri tərəfindən intensiv artilleriya atəşinə məruz qalanda ordumuzun bölmələri əks-həmlə ilə təxribatların qarşısını aldı. Uzun illərdir düşmən əsarətində olan Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər və Seysulan kəndi, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyi və Cocuq Mərcanlı, Goranboy rayonunun Gülüstan kəndi, Tərtər rayonunun Qazaxlar və Madaqiz kəndləri istiqamətində yollar azad olundu, ümumilikdə işğal altındakı ərazilərin 2000 hektardan çox hissəsi düşməndən təmizləndi.

Azərbaycan Ordusu dördgünlük Aprel döyüşləri ilə xalqımıza qələbə sevinci yaşatdı. Bu, 1994-cü ildə Azərbaycanla Ermənistan arasında imzalanan atəşkəsdən sonra ilk ən şiddətli döyüş sayılır. Heç şübhəsiz ki, Aprel döyüşlərində qazanılan qələbə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uzaqgörən diplomatiyasının, uğurlu daxili və xarici siyasətinin, sərkərdə məharətinin, Ali Baş Komandanın daimi diqqət və qayğısı ilə əhatə olunan silahlı qüvvələrimizin əsgər və zabitlərinin peşəkarlığının, mənəvi-psixoloji hazırlığının, döyüş ruhunun, vətənpərvərlik hissinin yüksək səviyyədə olması və xalqımızın ordu ilə monolit birliyi nəticəsində mümkün oldu.

Azərbaycan hərbçilərinin döyüş bacarıqlarını və uğurlarını dövlət başçısı yüksək qiymətləndirib. 2016-cı il aprelin 19-da Prezident İlham Əliyevin sərəncamları ilə Azərbaycan Silahlı Qüvvələrinin üç üzvü "Azərbaycanın Milli Qəhrəmanı", 7 üzvü "Azərbaycan Bayrağı" Ordeni, 1 üzvü 2-ci dərəcəli və 4 üzvü 3-cü dərəcəli "Vətənə xidmətə görə" Ordeni, 19 üzvü "Vətən uğrunda" medalı, 43 üzvü "İgidliyə görə" medalı, 45 üzvü "Hərbi xidmətlərə görə" medalı, 2 üzvü "general-mayor" ali hərbi rütbəsi ilə mükafatlandırıb.

Aprel döyüşləri onu göstərdi ki, Azərbaycan Ordusu güclü, qüdrətli, yenilməzdir, xalqımız qəhrəman, əzmkar xalqdır. Ermənistanın uzun illər ərzində öz ordusu haqqında yaratdığı miflər, əfsanələr darmadağın edildi. Ermənistanın və onun rəhbər şəxslərinin döyüş və siyasi meydanda acı məğlubiyyəti Ermənistanın işğal edilmiş torpaqlarımızı uzun müddət işğal altında saxlaya bilməyəcəyini təsdiq etdi. Sübut olundu ki, əsgər və zabitlərimiz qarşıya qoyulan istənilən tapşırığı yerinə yetirməyə qadirdir. Prezident cənab İlham Əliyev demişdir: *"Mən bunu dəfələrlə demişəm ki, Ermənistanın bir ölkə kimi bundan sonra da yaşaması üçün yeganə yol qonşularla münasibətləri tənzimləməkdir. Bunun üçün də yeganə yol var. Bu yol ondan ibarətdir ki, bizim işğal edilmiş torpaqlardan işğalçı qüvvələr qeyd-şərtsiz və dərhal çıxmalıdır. Bu baxımdan bu döyüşlərin çox böyük təsiri oldu. Bu təsir bu gün də özünü göstərir. Bu döyüşlər Azərbaycan xalqının, dövlətimizin, ordumuzun gücünü əyani şəkildə göstərdi. Göstərdi ki, son illər ərzində ordu quruculuğuna yetirilən diqqət, aparılan siyasət, maddi-texniki bazanın möhkəmləndirilməsi, ordumuzun döyüş potensialının gücləndirilməsi, bax, bu nəticələrə gətirib çıxarır".*

Aprel döyüşlərində xalqımızın minlərlə vətənpərvər, igid oğulları müqəddəs vətən torpağının hər qarışı uğrunda canlarından keçməyə hazır olduqlarını mənfur düşmənə, eləcə də bütün dünyaya bəyan etdilər. Aprel döyüşlərindəki qələbəmizin davamı olaraq 2020-ci il sentyabrın 27-də başlanan və 44 gün davam edən şanlı Vətən müharibəsi xalqımızı əbədi və əzəli torpağımız olan Qarabağa qovuşdurdu. Cocuq Mərcanlıdan başlanan şərəfli yol Şuşada böyük Zəfərlə bitdi. Bu Zəfərə hər zaman milli birlik və bərabərlik nümayiş etdirən, işğalla barışmayan xalqımızın əzmi, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin güclü, düşünülmüş siyasəti, Azərbaycan Ordusunun, əsgərinin cəsurluğu, fədakarlığı və rəşadəti hesabına nail olduq. Zabit və əsgərlərimizin hər biri cəbhədə öz canları-qanları bahasına əsl fədakarlıq göstərərək, ən uca zirvəyə – Şəhidlik zirvəsinə yüksəldi.

08.04.2024-cü il tarixində kanal "S" studiyasının "Səhər dəmi" verilişinin qonağı olduq. Mövzu vətənpərvərlik və Aprel döyüşləri haqqında idi. Verilişdə aprel döyüşündə iştirak edən qazilərimiz döyüş haqqında geniş məlumat verdilər. Vətənpərvərlik, vətəni sevmək və canından keçmək müzəffər ordumuzun qəhrəmanlarının amalı olmuşdur. Ali Baş Komandan Cənab İlham Əliyevin ətrafında şanlı ordumuz bir yumruq kimi birləşərək, 44 gün ərzində zəfər qazandılar. 27 sentyabrda başlanan döyüşlər 10 noyabr tarixində zəfərlə, qələbəmizlə başa çatdı. Vətən oğullarının fədakarcasına döyüşü nəticəsində 30 ildir işğal altında olan torpaqlarımız düşmən tapdağından azad olundu. 30 illik həsrətə son qoyuldu.

**Kifayət Aslan qızı Xudaverdiyeva,**
**Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) dosenti,**
**BMT-nin sülhməramlı səfiri**

# Mərkəzi Gömrük Hospitalında tibbin son nailiyyətlərindən biri olan TAVİ əməliyyatı uğurla həyata keçirilir

Mərkəzi Gömrük Hospitalının Kardiologiya şöbəsinin rəisi, yandal uzmanı, invaziv kardioloq İlqar Tahiroğlu TAVİ əməliyyatı (Transkateter Aorta Qapağı İmplantasiyası) barədə suallarımızı cavablandırıb.

**- İlqar həkim, ilk növbədə, TAVİ əməliyyatı barədə məlumat verərdiniz.**

- TAVİ - döş qəfəsi yarılmadan, heç bir kəsik aparılmadan, umumi anesteziya verilmədən kateter vasitəsilə xəstənin ayaq damarlarından girilərək, ürəyin aorta klapanına yeni klapan taxılması əməliyyatıdır. Bu əməliyyat yaşlı xəstələrdə aorta qapağı yaşla bağlı olaraq kirəcləməyə bağlı kritik aorta stenozu olan, yəni klapanda daralma olan xəstələrdə tətbiq olunur. Biz bu əməliyyatı açıq əməliyyat şansı olmayan xəstələrdə icra edirik. Qapağın müddəti açıq əməliyyatlarda olduğu kimi, 10-15 il müddətinə gedir. 15 ildən sonra yenidən daralma olarsa, yenidən qapaq taxaraq xəstənin ömrünü daha 15 il müddətinə uzadırıq. Qeyd etnək istəyirəm ki, aorta stenozu müasir səhiyyənin mühüm problemlərindən biridir. Ürəyin işemik xəstəliyi və hipertoniya ilə yanaşı, aorta qapağının qüsurları ürək-damar xəstəliklərinin üçüncü ən çox yayılmış qrupudur. Şiddətli aorta qapağı stenozunun müalicəsi adətən cərrahi yolla aparılır. İndiyə qədər açıq aorta qapağının dəyişdirilməsi standart müalicə metodu olmuşdur. Bununla belə, aorta qapağı stenozu olan xəstələrin təxminən üçdə biri həm əməliyyat zamanı, həm də əməliyyatdan sonrakı dövrdə yüksək cərrahi ağırlaşma riski səbəbindən cərrahi müalicə üçün uyğun deyil. Bu, aorta qapağı stenozunun çox vaxt müxtəlif yanaşı xəstəlikləri olan yaşlılarda baş verməsi ilə əlaqədardır.

Yaşlılar üçün açıq ürək əməliyyatları son dərəcə risklidir və aorta darlığı ilə yaşamaq çox təhlükəlidir. Bu xəstəlik 65 yaşdan yuxarı insanlarda kifayət qədər tez-tez baş verir. Bunun səbəbi yaşla birlikdə qapaq vərəqlərindən birinin normal işləməsini dayandırması və bununla da sol mədəcikdən aortaya qan axınının azalmasıdır.



**- Bu əməliyyat hansı xəstələrə təyin edilir?**

- Tibb elminin son nailiyyətləri bütün dünyada olduğu kimi, ölkəmizdə də insan ömrünü uzatmağa imkan verir və yaşlılarda ilk sıradan çıxan ürək qapaqlarının dəyişdirilməsi, şübhəsiz ki, bu prosesin diqqətəlayiq məqamlarından biridir.

TAVİ əməliyyatı Azərbaycanda nadir icra olunan əməliyyatlardan və tibbin son nailiyyətlərindən biridir. Bu əməliyyat yanaşı xəstəlikləri olan yaşlı insanlar, o cümlədən yüksək ölüm riskli aorta stenozu olan xəstələrin cərrahi müalicəsinin optimal növüdür. Aorta qapağının bioprotezi döyünən ürəyə implantasiya edilir.

**- TAVİ əməliyyatının üstünlükləri nədən ibarətdir?**

-TAVİ əməliyyatı narkoz verilmədən, ümumi anesteziya olmadan, sadəcə yüngül sedasiya vasitəsilə heç bir kəsik aparılmadan icra olunur. Xəstə üçün üstünlüyü odur ki, o, 24/48 saat sonra evə yazıla bilir və normal həyatına davam edir. Əməliyyat qısamüddətlidir və xəstə tez bir zamanda normal həyata qayıdır.

**- İlqar həkim, aorta stenozunun yaranma səbəbləri haqqında nə deyə bilərsiniz?**

- Sadə dildə desək, stenoz aorta qapağının strukturunda baş verən dəyişiklikdir. Bu zaman insan bədəninin əksər daxili orqanlarına və sistemlərinə qan tədarükü pisləşir. Aorta trikuspid qapağı bir növ "qapıdır, qanı ürəkdən damara keçirir və geri buraxmır. Bu qapaq qanın yalnız bir istiqamətdə axmasına imkan verir. "Zərərli" amillərə görə, qapaq vərəqləri birləşir, kalsifikasiya olunur - və tamamilə açılmağı dayandırır - aorta dəliyinin tədricən daralması baş verir, qan axını pozulur.

Aorta qapağı stenozunun digər səbəbləri kimi revmatik xəstəlikləri, aterosklerozu, aorta qapağının kalsifikasiyası və endokarditi misal çəkmək olar.

**- Aorta stenozu olan insanlarda hansı simptomlar özünü büruzə verir?**

- Bu gün hər onuncu yaşlı insan aorta stenozunun doğurduğu əlamətlərdən əziyyət çəkir. Bunlara təngnəfəslik, huşun itirilməsi, əzələ zəifliyi, daim yorğunluq və yuxulu olmaq, taxikardiya, aritmiya və sinə ağrıları, tez-tez baş ağrıları, miqren, quru və boğucu öskürək, qarın boşluğunda şişkinlik və mayenin yığılması daxildir.

**- Hansı xəstələr risk qrupuna daxildir?**

- Risk qrupunda olan xəstələr aşağıdakılardır: genetik meyilliyi olanlar, elastin geninin irsi patologiyası, şəkərli diabet, hipertoniya və böyrək çatışmazlığından əziyyət çəkən xəstələr, siqaret çəkənlər və s.

**- Aorta stenozunu təyin etmək üçün hansı müayinələr aparılır?**

- Əməliyyat üçün göstərişləri və onun həyata keçirilməsinin mümkünlüyünü müəyyən etmək üçün əsas tədqiqatlar da daxil olmaqla hərtərəfli müayinə tələb olunur. Bunlara EXO-KQ (exokardioqrafiya), koronar angioqrafiya, ürəyin və aortanın MSCT (multispiral kompüter tomoqrafiyası) daxildir.

Bu araşdırmaların göstəricilərini qiymətləndirdikdən sonra əməliyyatın mümkünlüyü barədə qərar qəbul edilir.

**- Maraqlı müsahibəyə görə təşəkkür edirik.**

- Sağ olun. Mən də sonda qürur hissi ilə bildirmək istəyirəm ki, bu gün TAVİ əməliyyatı Mərkəzi Gömrük Hospitalının Kardiologiya şöbəsinin yüksəkixtisaslı invaziv kardioloqları tərəfindən uğurla icra olunur.

**Müsahibəni apardı:**
**Mərkəzi Gömrük Hospitalının PR mütəxəssisi**
**Dilarə Zamanova**




**Azəri Light və Brent markalı neftin bir barelinin 4 – 17 aprel tarixlərində satış qiyməti, ABŞ dolları ilə (ICE birjası)**

**İqtisadçı ekspert: Maqsud Quliyev**

# Bakcell böyük yeniliklərə hazırlaşır

Son bir neçə həftə ərzində ölkənin media gündəmindən çıxmayan Bakcell "yeni dövr başladırıq" şüarı ilə növbəti videonu paylaşıb. Yeni reklamda Azərbaycanın bir çox tanınmış simaları Bakcell brendinin böyük dəyişiklər astanasında olduğunu bildirir və bir çox yeniliklər gətirəcəyini vəd edir.



Şirkət heç bir rəsmi açıqlama verməsə belə, videolarda innovasiya, süni intelekt və yeni məhsullarla bağlı mesajları sezmək olur. Ən son reklamda isə tarix və məkan qeyd olunub; 25 aprel 18:00, Bakı Bulvarı.

## ALLAH RƏHMƏT ELƏSİN

Akademik Ziyad Səmədzadə sabiq deputat, Milli Məclisin
Əmək və sosial siyasət komitəsinin keçmiş sədri
**HADİ RƏCƏBLİNİN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

**Təsisçi:**
**Akademik Ziyad SƏMƏDZADƏ**
**Baş redaktor:**
**Aytən SƏMƏDZADƏ**

**ELMİ-REDAKSİYA ŞURASI:**
**Ziyad Səmədzadə, Aytən Səmədzadə, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Bəyalı Ataşov, Zahid Məmmədov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Abbas Əliyev**

**www.iqtisadiyyat.com**

**Redaksiyanın ünvanı:**
**Əliyar Əliyev küçəsi, 7**
**Redaksiya: +99412 566 09 60**
**Faks: +99412 514 14 27**
**Mühasibatlıq:**
**+99412 566 63 08**

**Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500**